**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.231

**QƏZƏNFƏR ABBASOV***

# AZƏRBAYCANDA XANƏNDƏLİK SƏNƏTİNİN MÜASİR İNKİŞAF PERSPEKTİVLƏRİ

*Azərbaycan muğam sənəti hər zaman aktual tədqiqat obyekti olaraq musiqi elminin diqqət mərkəzindədir. Təqdim edilən məqalə muğam sənətinin əsas təmsilçisi olan xanəndə yaradıcılığına həsr olunur. Araşdırmanın əsas məqsədi xanəndəlik sənətinin müasir dövrdə kəsb etdiyi yeni xüsusiyyətləri, eləcə də onun inkişaf perspektivlərini aşkara çıxarmaqdan ibarətdir. Bu məqsədi həyata keçirmək üçün muğam sənətinin tarixinə nəzər salınmış, xanəndəliyin bir sənət sahəsi kimi tarixi təşəkkül mərhələləri qısa şəkildə şərh edilmiş, müasir dövrdə əldə edilən nailiyyətlər vurğulanmışdır. Məqalədə muğam sənəti ilə bağlı layihələrin, eləcə də xanəndəliyin inkişafına xidmət edən musiqi təhsili ocaqlarının fəaliyyəti, Azərbaycan Milli Konservatoriyasının bu işdə xüsusi rolu işıqlandırılmışdır. Məqalədə xanəndəlik sənətinin yaradıcı və pedaqoji istiqamətləri də müasir inkişaf imkanları baxımından dəyərləndirilmişdir.*

***Açar sözlər**: Azərbaycan muğam sənəti, xanəndə, opera, ifaçılıq, tədris*

## Giriş

İncəsənətin dinamik inkişaf edən sahələrindən biri də xanəndəlik sənətidir. "Xanəndə" sözü musiqi termini olaraq XVI-XVII əsr mənbələrində işlənməyə başlamışdır. "Bu ad adətən, muğam sənətinə kamil surətdə yiyələnmiş nəğməkara aid edilir. Bir qayda olaraq o, xanəndə-sazəndə dəstəsində (üçlük ansamblında) həm də dəfçi kimi çıxış edir" [2, s.80]. Lakin sənətin özü adından daha öncəki mərhələlərdə təşəkkül tapmışdır [1, s.392]. Xüsusilə musiqi elminin inkişaf etdiyi orta əsrlərdə bu sənəti təmsil edənlər həm də onun tədqiqini həyata keçirən alimlər olmuşlar. Musiqi tarixi mənbələrindən bizə məlumdur ki, Şərqin böyük musiqi alimləri Səfiyyəddin Urməvi, Əbdülqadir Marağayi musiqi alətlərinin, muğamların mahir ifaçısı kimi də şöhrət tapmışdılar. Bununla belə, saraylarda məxsusi olaraq hökmdarlara xidmət edən musiqiçilər dəstəsi fəaliyyət göstərmişdir ki, onlar həm musiqi alətində ifa edir, həm də muğamları və digər mövcud musiqi nümunələrini oxuyurdular. Xanəndəlik sənətini digər musiqi ifaçılarından fərqləndirən və belə demək olarsa, daha üstün mövqeyə daşıyan mərhələ isə XVI-XVII əsrlərdən başlamış və XIX əsrdə öz pik səviyyəsinə çatmışdır. Bu proses isə bilavasitə muğam sənətinin inkişafı ilə bağlı olmuşdur.

Vokal-instrumental ifaçılıq sənəti kimi xanəndələrin repertuarını əsas etibarilə muğam dəstgahları, eləcə də təsniflər, xalq mahnıları təşkil edir. Onları vokal sənəti ilə məşğul olan digər ifaçılardan fərqləndirən əsas cəhətlərdən biri də məhz budur. Xanəndə ifası dedikdə ağla ilk gələn muğam olur. Təsnif və mahnılar da bir mənada dəstgahın kəsb etdiyi məzmuna daxil olur. Məlumdur ki, təsniflər muğam dəstgahlarının şöbələri arasında ifa edilir və zaman-zaman onları xalq mahnıları ilə də əvəzləyirlər. Bu da deməyə imkan verir ki, xanəndə ifaçılığının möhürü ilk növbədə muğam dəstgahının ifası ilə vurulmuşdur. Bu həm də, xanəndənin peşəkarlıq meyarlarını müəyyən edir.

Təqdim etdiyimiz araşdırmanın əsas məqsədi tarixi yüz illərə dayanan xanəndəlik sənətinin müasir günümüzdə inkişaf yollarına nəzər salmaq, gələcək

perspektivlərini işıqlandırmaqdan ibarətdir. Bu məqsədi həyata keçirmək üçün xanəndəlik sənətinin tarixi inkişaf yollarını qısa şəkildə nəzərdən keçirmək və müasir dövrlə müqayisəli şəkildə dəyərləndirmək; sənətin inkişafı üçün yaradılan yeni imkanları incələmək, o cümlədən gələcək perspektivlərə nəzər salmaq gərəkdir. Sadalanan məsələləri elmi nöqteyi nəzərdən araşdırmaq və təhlillər aparmaq üçün müraciət edilən tarixi metod mövzunun retrospektiv aspektini işıqlandırmaq, tarixi-müqayisəli metod isə xanəndəlik sənətinin bugünkü inkişaf istiqamətlərini ənənə və müasirlik zəminində müqayisə etmək üçün seçilmişdir. Əldə edilən təhlil nəticələri həm də xanəndəlik sənətinin gələcək perspektivlərini qismən müəyyən etməyə, bugünkü vəziyyətinin müsbət və mənfi tərəflərini görməyə imkan verir.

**Azərbaycanda xanəndəlik sənətinin tarixi inkişaf mərhələləri**. Xanəndəlik sənəti kəsb etdiyi məzmun etibarilə muğam sənəti ilə birbaşa bağlı olduğundan onun formalaşma tarixini muğamla bağlı risalələrdə axtarmaq məqsədəuyğun görünür. Lakin, nəzərə almaq lazımdır ki, xanəndə anlayışı həm də musiqi ifaçısı mənasını kəsb edir ki, bu da bir qədər araşdırma hüdudlarını genişləndirməyə imkan verir. Azərbaycanda musiqi sənətinin tarixini öyrənən elmi mənbələrdə miladdan əvvəlki minilliklərə qədər uzanan böyük bir inkişaf yolunu görmək mümkündür [1, s.33]. Arxeoloji qazıntıların nəticələrinə istinad edən bu tarixi araşdırmalarda musiqi mədəniyyətinin ilk forması təbii ki, birbaşa folklora bağlanır. Musiqinin həm yaradıcısı, həm də ifaçısı olan xalqın nümayəndələri arasında daha istedadlılarının zamanla seçilməsi onların xüsusi statusunu da müəyyənləşdirmiş oldu. Bəşər tarixi inkişaf etdikcə və sosial təfəkkürün yeni mərhələlərinə keçid aldıqca musiqi sənəti də gündəlik yaşamın bir parçası olmaqla bərabər, həm də xüsusi peşə sahəsinə çevrilməyə başladı. Nəticədə xalq arasında musiqi yaradan, onu hər hansı musiqi alətində səsləndirən və oxuyan insanlar həm də bu işi özlərinə bir peşə kimi seçmiş oldular. Ozan sənətinin tarixini araşdıran elmi tədqiqatlarda bu tarixi mərhələ musiqi qabiliyyəti digərlərindən fərqlənən insanların xalq arasında seçiləməsini və üstün mövqeyə sahib olmasını şərh edən fikirlərə çox rast gələ bilərik [5, s.10].

Musiqi ifaçısının - vokal və ya instrumental, ozan və ya muğam ifaçısı olaraq məxsusi istiqamətlərdə formalaşması orta əsrlərdə baş vermişdir. Bu haqda geniş məlumatlar Şərqin böyük alimləri Fərabi, Əl Kindi, Səfiyyəddin Urməvi, Əbdülqadir Marağayi və digərlərinin risalələrində verilmişdir. Orta əsrlərin muğam ifaçılığı üçün səciyyəvi olan əsas cəhət isə yaradıcılıq sahələrinin bir insanın timsalında birləşməsi idi. Adıçəkilən alimlərin hər biri həm də istedadlı musiqi ifaçısı kimi tanınmışdır. Onlar həm musiqi alətlərinin yaradıcısı, həm də bu alətlərdə ifa edilən musiqinin müəllifləri olmuşlar. Bununla yanaşı, musiqi elmi, muğam, məqam məsələlərinin öyrənilməsində bu alimlərin böyük töhfələri olmuşdur ki, bu dəyərli elmi mənbələr bizə xanəndəlik sənəti haqqında məlumat almağa imkan verir. Əlbəttə biz, muğam tarixi ilə bağlı orta əsr araşdırmalarının geniş şərhini vermək fikrində deyilik. Lakin, xanəndəliyin muğam sənəti ilə bağlı yaranıb formalaşması və eyni şəkildə onunla birlikdə təkamül prosesi keçməsi bəzi məqamlara işıq salmağı zəruri edir.

Əvvəldə də qeyd etdiyimiz kimi, orta əsr saray mədəniyyətində muğam musiqi ifaçısının repertuar tərkibinə daxil olan janr növü kimi qəbul edilirdisə, XVI-XVII əsrlərdə artıq sırf bu sahədə peşəkarlaşan ifaçıları xanəndə adlandırmağa başlamışdılar. Bu haqda XVII əsrin saray musiqiçisi Murad Ağa Əcəmiyə həsr edilən

başlıqda oxuyuruq: "Bağdad Osmanlı ordusu tərəfindən fəth olunduqdan sonra sultan IV Murad on sazəndəni və iki xanəndəni özü ilə birgə İstanbula gətirdi. Xanəndələrdən biri Murad Ağa, digəri isə Mirməhəmməd idi" [1, s.392]. Qeyd edək ki, kitabda verilən bu informasiya 1847-ci il doğumlu Osmanlı alimi Əsad Əfəndinin "Ətrabül asar" əsərindən əldə edilmişdir. Azərbaycanda XVIII əsrdən sonra xanəndəlik sənətinin yüksək inkişaf mərhələsi başlamışdır. Bu tarixi mərhələdə Azərbaycanda muğam məktəbləri formalaşmış, şeir-musiqi məclisləri təşkil olunmuş və muğam ifaçılığının yüksək səviyyədə inkişafı baş tutmuşdu. Qarabağ, Şirvan və Bakıda təşkil edilən muğam məclislərində xanəndəlik sənətinin ustad nümayəndələri yığışaraq sənət haqqında müzakirələr aparır, eləcə də gənc xanəndələrin ifalarını dinləyərək öz məsləhətlərini verirdilər [6, s.17]. Şuşada muğam məktəbi kimi fəaliyyət göstərən və gənc xanəndələrə muğam ifaçılığını öyrədən Xarrat Qulu məktəbi, Mir Möhsün Nəvvabın hücrəsi bu sənətin kamilləşməsində, yeni inkişaf mərhələsinə qədəm qoymasında mühüm rol oynamışdır. XIX əsrin II yarısından etibarən Azərbaycan xanəndəlik sənətinə Hacı Hüsü, Səttar, Əbdülbaqi Zülalov (Bülbülcan), Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd, Şəkili Ələsgər, Məşədi Məmməd Fərzəliyev, Zabul Qasım, Segah İslam, Hüseynqulu Sarabski, Seyid Şuşinski, Məcid Behbudov, Bülbül, Xan Şuşinski və onlarla ustad sənətkarların adları daxil oldu.

**Azərbaycan xanəndəlik sənəti XX əsrdə**. Xanəndəlik və ümumiyyətlə muğam sənətinin inkişafında yeni mərhələ kimi qiymətləndirilən XX əsr Azərbaycan mədəniyyəti kontekstində geniş anlam daşıyır. Bu əsrin ilk onilliyi Şərqdə ilk operanın (Ü.Hacıbəyli "Leyli və Məcnun", 1908) yaranması ilə səciyyəvidir. İkinci onillikdə Azərbaycanda ilk ali musiqi tədrisi ocağı - Azərbaycan Dövlət Konservatoriyası (1921) yaranmışdı. Bu dövrdə muğam musiqi təhsili verən ibtidai, orta və ali təhsil müəssisələrinin tədris proqramlarına daxil oldu. 1925-ci ildə isə artıq ilk muğam proqramı tərtib edildi [7, s.280]. Muğam sənətinin inkişafına böyük təkan verən bu hadisələrin fonunda həm də milli vokal ifa üslubunu yaşadıb inkişaf etdirən təhsilli kadrların hazırlanması prosesi gedirdi. Bu da ilk növbədə xanəndəlik sənətinin inkişafına töhfə verməkdə idi.

Xanəndəlik sənətinin peşəkar səhnə meyarlarının inkişafı isə muğam operalarının yaranması ilə bağlı idi. Ü.Hacıbəylinin, Z.Hacıbəylinin, M.Maqomayevin muğam operalarında çıxış edən xanəndələr həm də muğam ifaçılığının Şərq konsertlərindən başlayan yolunu daha yüksək pillədə, Opera və Balet teatrının səhnəsində davam etdirirdi. Musiqişünaslıq tədqiqatlarında bu prosesin qarşılıqlı təsirindən də bəhs edilir: "Milli musiqi mədəniyyətinin inkişafında xanəndələrin xidmətlərindən danışarkən, həmçinin, Azərbaycanda musiqili tamaşaların və bilavasitə muğam operalarının yaranmasını qeyd etməliyik" [4, s.911]. Bu yanaşmanı belə şərh etmək olar ki, əgər muğam operalarının yazılmasında əsas ilham qaynağı muğam sənəti və ustad xanəndələrin, sazəndələrin yaradıcılığı olmuşdusa, bu əsərlərin səhnələşdirilməsi ilə Opera teatrının səhnəsində muğam ifaçılığının yeni səviyyəsi formalaşmağa başladı. Burada bir faktı nəzərə almaq lazımdır ki, muğam sənətinin tədrisi bilavasitə instrumental ifaçılıq zəminində aparılırdı və xanəndəliyin ali təhsil prosesinə daxil olması XX əsrin II yarısından baş vermişdi. Lakin, opera səhnəsinə çıxan xanəndələr burada əldə etdiyi vokal

təcrübələri sayəsində sənətin yeni səviyyəsinə yüksəlirdilər. Azərbaycan vokal məktəbinin banisi Bülbül "Sovet vokal sənəti məktəbi uğrunda" məqaləsində yazırdı: "Bizə elə vokalistlər lazımdır ki, həm xanəndəlik ustalığına mükəmməl yiyələnsin, xalq müğənnilərini imitasiya edə bilsin, xalq yaradıcılığı əsərlərini ifa etsin, həm də orta və ali musiqi məktəbi həcmində musiqi təhsilinə malik olsun" [3, s.65]. XX əsrin 40-cı illərinə təsadüf edən bu məqalədə Bülbül Azərbaycan operası səhnəsində çıxış edəcək vokal ifaçısının malik ola biləcəyi meyarları sadalayarkən, xalq yaradıcılığı ilə bağlı tələbələrə daha çox rast gəlirik. Əslində, muğam operalarında çıxış edən xanəndələrin sənətinə nəzər saldıqda bu meyarların demək olar ki, əksər hissəsinin var olduğunu görmək mümkündür. Opera səhnəsinə çıxan xanəndənin ifaçılıq ustalığı muğam və xalq musiqisinin digər janrları baxımından nə qədər mükəmməl idisə, opera janrının, simfonik orkestrin müşayiəti ilə klassik vokal ifasının və səhnə meyarlarının mənimsənilməsi cəhətdən təcrübə qazanmaq lazım gəlirdi. Bu da zamanla öz həllini tapmaqla xanəndəlik sənətinin yeni inkişaf pilləsini hazırlamış oldu. Bu inkişafın davamı isə musiqi tədrisi müəssisələrində davam etdirilərək həm opera səhnəsində, həm də yerli və beynəlxalq konsert salonlarında çıxış edə bilən peşəkar xanəndələrin yetişdirilməsi ilə nəticələnmiş oldu.

**Azərbaycanda xanəndəlik sənətinin bugünkü vəziyyəti - ənənə və müasirlik**. Xanəndəlik sənətinin müasir mərhələsi adlandırdığımız tarixi dövr bir qədər əvvəldən başlamış olsa da, biz əsas diqqəti dövlətimizin müstəqillik əldə etdikdən sonra mədəniyyət sahəsində qazanılmış nailiyyətlərə yönəltməyi məqsədəuyğun hesab edirik. Yüz ildən artıq vaxt keçməsinə baxmayaraq opera səhnəsində əldə edilən təcrübələr bu gün də yaşadılaraq yeni istedadların sənətində təkmilləşməkdə davam edir. Hələ də öz aktuallığını itirməyən, əksinə zaman keçdikcə daha da təravətlənən muğam operalarımızda çıxış edən xanəndə nəslinin bir-birini əvəz etməsi deməyə əsas verir ki, Məcnun, Leyli, Qərib , Əsli, Kərəm və digər qəhrəmanları yaratmaq muğam ifaçısının yüksək peşəkarlıq meyarlarından biri kimi dəyərləndirilir. Az qala hər bir gənc xanəndə nə vaxtsa opera səhnəsində Məcnun və ya Leylini yaradacığı günün xəyalını qurur. Bu gün geriyə dönüb baxdıqda opera səhnəsində çıxış etmiş ustad xanəndələrin sənəti və uğurları müasir muğam ifaçıları üçün bir məktəbə çevrilmişdir. Bu da muğam ifaçılığı ənənələrinin yaşadılmasında opera ifaçılığının da mühüm yer tutduğunu bir daha ortaya qoymuş olur. Bu əhəmiyyət xanəndəlik sənətinin tədrisində opera hazırlığının tədrisi ilə də öz təsdiqini tapır.

Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra həyatın bütün sahələrində olduğu kimi, mədəniyyət və incəsənətdə də köklü dəyişikliklər baş verdi. Bu dəyişikliyin ən parlaq nümunələrini isə muğam ifaçılığında görmək mümkündür. Vətənimizin muğam beşiyi olan Qarabağa qarşı düşmən təcavüzü nəticəsində yaşanan böyük faciələr və sarsıntılar öz təsirini nəinki xalqın gündəlik həyatına, həm də onun mənəvi dünyasına, xüsusilə sənət camiyəsinin nümayəndələrinə göstərmiş oldu. Azərbaycan muğamının bulaq kimi çağladığı mədəniyyət mərkəzi Şuşanın zəbt edilməsi XX əsrin 90-cı illərində incəsənətimizə vurula biləcək ən böyük zərbələrdən biri idi desək, yanılmarıq. Lakin ulu öndər, xalqımızın ümumilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişi zamanla bu yaraların sağalması, xalqın və ölkənin toparlanması, iqtisadiyyatın dirçəlməsi ilə nəticələnmiş oldu. Sənətə, sənətkara xüsusi qiymət verən H.Əliyev Azərbaycan muğamını yaşadan xanəndələrin sənətini yüksək

qiymətləndirərək onlara hər zaman mənəvi, maddi dövlət dəstəyi nümayiş etdirirdi. 2000-ci illərdə də muğam sənəti yeni yüksəliş dövrünün yaşamağa başladı. 2002-ci ildən fəaliyyətə başlayan Azərbaycan Milli Konservatoriyasının yaradılması bu yüksəliyin keşiyində duran və onu yeni səviyyələrə daşıyan çox mühüm bir addım oldu. Bundan başqa Heydər Əliyev Fondunun həyata keçirdiyi möhtəşəm muğam layihələri inkişafın yeni xəttini davam etdirdi. 2009-cu ildən başlayaraq ölkəmizdə təşkil edilən Beynəlxalq Muğam Festivalı, eləcə də "Muğam- İrs", "Muğam ensiklopediyası", "Muğam antologiyası", "Muğam-internet", "Muğam aləmi", "Beynəlxalq Muğam Mərkəzi" layihələri, o cümlədən "Qarabağ xanəndələri" albomu, "Muğam konsertləri", "Muğam jurnalı" və s. bu sənətin müasir inkişafında böyük dönüş yaratmış oldu. 2003-cü ildə Azərbaycan muğamının geniş miqyasda dünya səviyyəsində tanınması və UNESCO-nun Qeyri - maddi Mədəni İrs siyahısına daxil edilməsi də bu dövrə təsadüf edir. Adıçəkilən layihələr, tədbirlərlə yanaşı, Azərbaycan muğam ustalarının xarici ölkələrdə mütəmadi olaraq konsertlərinin təşkil edilməsi, dövlət tərəfindən fəxri adlarla, mükafatlarla təltif edilməsi, gənc istedadlara yeni imkanların, geniş şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı uğurlu mədəniyyət siyasətinin bariz nümunəsi idi. Bu dövrü səciyyələndirən muğamşünas alim R.Zöhrabov yazır: "XXI əsrin ilk onilliyinə qədər qətiyyətlə onu deyə bilərik ki, heç bir zaman muğam sənətinin belə bir inkişaf mərhələsi olmamışdır" [7, s.7].

Ölkədə keçirilən muğam müsabiqələrinin gənc istedadların üzə çıxarılmasında rolunu da xüsusilə qeyd etmək lazımdır. Bu müsabiqələrdə iştirak edən gənclərin əksəriyyəti isə ölkəmizin musiqi təhsili ocaqlarının və ələlxüsus Azərbaycan Milli Konservatoriyasının tələbələri olması xanəndəlik sənətinin tədrisində əldə edilən yüksək nəticələri nümayiş etdirir. İki onillik ərzində keçirilən müsabiqə və festivalların iştirakçılarının bir çoxu muğam sənətini beynəlxalq müsabiqələrdə, dünya ölkələrində təşkil edilən mötəbər tədbirlərdə, konsert səhnələrində uğurla təmsil edir.

Gənc xanəndələrimizin uğurlarını opera səhnəsində də görmək mümkündür. Bu gün həmin səhnədə Məcnunlar, Leylilər artıq muğam sənətinə peşəkar səviyyədə yiyələnmiş gənc xanəndələr tərəfindən yenidən xalqa sevdirilir. Bu da ənənələrin yaşadılması, varisliyin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından olduqca vacibdir.

**Nəticə**

Muğam ifaçılığının və bilavasitə xanəndəlik sənətinin tarixi inkişaf mərhələlərinə nəzər saldıqda müasir dövrümüzə gəlib çataraq üç əsas mövqedə qərarlaşan yaradıcılıq istiqamətlərini müəyyən etmək mümkündür. Bunlardan biri muğam dəstgahlarının, təsnif və mahnıların ifası ilə səciyyəvi olan konsert ifaçılığı, ikincisi opera səhnəsinə bağlı yaradıcılıq yolu və nəhayət üçüncüsü ustad-şagird ənənələrini uğurla davam etdirən pedaqoji fəaliyyət sahəsidir. Lakin müasir Azərbaycan xanəndəsinin əsas üstünlüyü ondan ibarətdir ki, hər üç yaradıcılıq sahəsi bir simada cəmləşir. Yəni, bu gün peşəkar xanəndəlik sənətinə yiyələnmiş ifaçılar özlərini həm opera səhnəsində sınayır, həm konsert salonlarında, müsabiqə və festivallarda, el şənliklərində, dövlət tədbirlərində çıxış edir, həm də pedaqoji fəaliyyətlə məşğul olur. Hər biri xüsusi əmək və istedad tələb edən üç sahənin də bir-

birini tamamlaması isə muğam sənətimizi yaşadan və gələcək nəsillərə ötürülməsi yolunda əzmlə çalışan müasir xanəndələrimizin əsas məziyyətidir.

Beləliklə, xanəndəlik sənətinin keçdiyi tarixi təşəkkül mərhələləri və müasir dövrdə yaşadığı yeni yüksəliş dövrünün əldə etdiyi nailiyyətlərə nəzər saldıqdan sonra onun əsas inkişaf istiqamətlərini, eləcə də gələcək perspektivlərini müəyyən etməyə çalışaq. Xanəndəlik sənətinin müasir vəziyyəti ilk növbədə onun tədrisi, tədqiqi və təbliği ilə bağlı bir məsələdir. Bu gün müasir texnologiyaların yüksək səviyyədə inkişaf etdiyi bir dönəmdə muğam sənətinin, xanəndə yaradıcılığının təbliğini həm dövlət səviyyəsində, həm də fərdi şəkildə aparmaq xeyli asanlaşmışdır. Artıq faktların təhrif edilməsi, məlumatların çatdırılmasına törədilən maneçiliklərin aradan qaldırılması mümkündür. Bunu ən sadə şəkildə, müxtəlif sosial platformalar vasitəsilə də etmək mümkündür. Muğam sənətinin dövlət səviyyəsində təbliği məsələsinə əvvəldə bir qədər toxunmuşduq. Ölkəmizdə mütəmadi olaraq Beynəlxalq Muğam Festivallarının keçirilməsi, elmi simpoziumların təşkili təbliğat prosesinin əsas hissəsini təşkil edir. Azərbaycan xanəndələrinin dünya ölkələrində konsertlərinin təşkili, CD disklərin hazırlanması da bu qəbildən hesab edilə bilər.

Muğam sənətinin tədrisində xanəndəliyin bir ixtisas sahəsi kimi yer tutması da mövzunun aktual tərəflərindən biridir. Bu işdə böyük əməyi olan musiqi təhsili müəssislərinin rolunu qeyd etməklə yanaşı, Azərbaycan Milli Konservatoriyasının fəaliyyətini xüsusi olaraq vurğulamaq lazımdır. Bu təhsil müəssisəsinə Azərbaycan xanəndəlik sənətinin görkəmli ustadları cəlb olunmuşdur. Gənc xanəndələrə muğam sənətinin sirlərini öyrədən sənətkarlar sırasında Xalq artistləri Arif Babayev, Alim Qasımov, Mənsum İbrahimov, Nəzakət Teymurova, Aygün Bayramova, Zabit Nəbizadə; Əməkdar artistlər Gülüstan Əliyeva, Aqil Məlikov, Cabir Abdullayev , Təyyar Bayramov, Vüqar Əliyev və digərləri yer alır.

Xanəndələrin pedaqoji fəaliyyətlə sıx məşğul olması həm də ustad-şagird ənənələrinin müasir davamı kimi çox mühümdür. Bu dönəmdə gənc xanəndənin yetişdirilməsində bir yox, onlarla müəllimin iştirakı ustad-şagird ənənələrinin müasir konteskti, inkişafı kimi qiymətləndirilə bilər. Tələbə üçün öz seçidyi sənət yolunda peşəkarlığa çatmaq üçün lazım olan onun fərdi zəhmətkeşliyi, məsuliyyəti və əzmidir. Azərbaycan Milli Konservatoriyasında təhsil alan tələbələr üçün yarıdılan şərait, rəhbərliyin, professor-müəllim heyətinin göstərdiyi diqqət və qayğı, yüksək səviyyəli tədris prosesi onların gələcək sənət yolunu işıqlandıran parlaq günəş kimidir. Bu gün, konservatoriyada təhsil alan xanəndə gənclər rəhbərlik tərəfindən həm də ölkə miqyasında və beynəlxalq səviyyədə keçirilən müsabiqə və festivallara təqdim edilir, xarici dövlətlərdə təşkil edilən konsert səfərlərinə cəlb olunur, opera səhnəsində yaradıcılıq yolunu başlamasına təkan verilir.

Xanəndəlik sənəti şifahi ənənələrə dayanan yaradıcılıq sahəsidir. Lakin onun elmi tədqiqat obyektinə çevrilməsi və alimlər tərəfindən araşdırılması bu sənətin inkişafına mühüm təkan ola bilər. Araşdırma zamanı nəzər saldığımız elmi mənbələr sırasında xanəndəlik sənətinin tarixi, eləcə də ayrı-ayrı xanəndələrin həyat və yaradıcılıq yoluna həsr edilmiş tədqiqatlar çoxluq təşkil edir. Lakin xanəndəlik sənətinin tədqiqi həm də bu unikal sənətin vokal imkanlarının öyrənilməsi, səsçıxarma texnikası, zəngulə, boğaz, səsoynatma bacarığı və s. kimi ifaçılıq məsələlərinin araşdırılması ilə yeni elmi perspektivlər vəd edir. Arzu edərdik ki, belə

mövzular gələcək elmi konfrans və simpoziumların mövzusuna çevrilsin və gənc tədqiqatçıların diqqətini cəlb etsin. Fikrimizi yekunlaşdıraraq belə qənaətə gəlirik ki, Azərbaycan muğam sənəti və onun əsas təmsilçisi olan xanəndə yaradıcılığı həm elmi araşdırmalarda, həm də konsert və opera səhnələrində, tədris ocaqlarında öz inkişafının yeni mərhələsinə yüksəlməkdə davam edəcək və minilliklərə dayanan zəngin mədəniyyətimizin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. 5 cildlik / Layihə rəhbəri və elmi red.Z.Səfərova. Bakı: Şərq-Qərb, 2012. 592 s.
2. Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb, – 2017. – 472 s.
3. Bülbül. Seçilmiş məqalə və məruzələri / Tərt. Q.Qasımov, Ə.İsazadə. Bakı: AMEA Nəşriyyatı, 1968. 228 s.
4. Əsgərova V. Azərbaycan operası və xanəndəlik sənəti // Rast muzikoloji dergisi, 2015. cilt III, sayı 2, s.909-914.
5. Qasımlı M.P. Ozan aşıq sənəti / M.P.Qasımlı. Bakı: Uğur, 2011. 304 s.
6. Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri / F.M.Şuşinski. Bakı: Yazıçı, 1985. 389 s.
7. Zöhrabov R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. Bakı: Təhsil, 2013. 336 s.

***AMK baş müəllimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi***

**Gazanfar Abbasov**

## MODERN DEVELOPMENT AND PROSPECTS OF ART KHANENDA İN AZERBAİJAN

Azerbaijani mugham is always in the spotlight of music science as a relevant object of research. The presented article is devoted to the work of khanende, who is the main representative of the art of mugham. Here the main goal is to reveal new features of the art of khanende in the modern era, as well as the prospects for its development. To achieve this goal, the history of the art of mugham is reviewed, the stages of the historical development of the singing art as a special field are briefly explained, and the achievements achieved in the modern era are highlighted. The article highlights the importance of projects related to the art of mugham, as well as the activities of music educational centers, and the special role of the Azerbaijan National Conservatory. In the article, the creative and pedagogical directions of singing art are assessed from the point of view of modern development opportunities.

**Key words:** *Azerbaijani mugham, khanende, opera, performance, teaching.*

**Газанфар Аббасов**

## СОВРЕМЕННОЕ РАЗВИТИЕ И ПЕРСПЕКТИВЫ ИСКУССТВО ХАНЕНДЕ В АЗЕРБАЙДЖАНЕ

Азербайджанский мугам всегда находится в центре внимания музыкальной науки как актуальный объект исследования. Представленная статья посвящена творчеству ханенде, который является главным представителем искусства мугама. Здесь главная цель – раскрыть новые особенности искусство ханенде в современную эпоху, а также перспективы его развития. Для реализации этой цели рассмотрена история искусства мугама, кратко объяснены этапы исторического становления певческого искусства как особой области, освещены достижения, достигнутые в современную эпоху. В статье освещена важность проектов, связанных с искусством мугама, а также деятельность музыкальных образовательных центров, и особая роль Азербайджанской Национальной Консерватории. В статье творческое и педагогическое направления певческого искусства оценивается с точки зрения современных возможностей развития.

***Ключевые слова**: Азербайджанский мугам, ханенде, опера, исполнительство, преподавание.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 10.10.2025**
**Son daxilolma tarixi:18.11.2025**